Firavan Mahir

# Jalə sevgisi

(poeziya, nəsr)

Bakı - 2026

*Firavan Mahir,*
*"Jalə sevgisi" (poeziya, nəsr)*
*Bakı, «İMZA» nəşrlər evi, 2026, 116 səh*

**Redaktor:** **Əli bəy Azəri,**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü*

**Ön sözün müəllifi:** **Şakir Albalıyev,**
*AMEA Folklor institutunun əməkdaşı*

*Təkmilləşdirilmiş ikinci nəşr*

*Firavan Mahir yaradıcılığının ədəbi dərgilərdə çap olunmuş nümunələrindən bir hissəsi toplanaraq bu kitaba daxil edilmişdir. Kitab ilk dəfə 2019-cu ildə "Təknur" poliqrafiya müəssisəsi tərəfindən nəşrə hazırlanmış və məhdud sayda buraxılmışdır. Bəzi düzəliş və əlavələrlə yenidən çap olunması zərurəti yaranmışdır. Ümidvarıq ki, şairin poetik tapıntıları ilə zəngin poeziya nümunələri, eləcə də kiçik həcmli hekayələri oxucular tərəfindən rəğbətlə qarşılanacaqdır.*

**İSBN 978-9952-37-720-0**
© ***Firavan Mahir*** **- 2026**

# FİRAVANIN POETİK SEVGİSİ

*("Ön söz" əvəzi)*

Firavan Mahir qızı Məmmədova ixtisasca ingilis dili müəllimidir. Onunla "Təknur" mətbəəsində görüşüb tanış olduq. Şeirlərini gətirmişdi. Baxdım, vərəqlədim. Poeziya aləminə ilk qədəmlərini atan bu gənc xanımın yazdıqlarından həyata şairanə baxışlarını aydınca sezdim.

***Günəş işıldayır yaşıllıqlarda,***
***Jalələr insana sevgidən deyir.***
***Bütün bir gecəni jalə yollarda,***
***Gözləri yol çəkib günü gözləyir.***

***Qovuşmaq nə gözəl hissdir, ay Allah,***
***Jalənin üzündə günəş parlayır,***
***Jalə elə bil ki, jaləliyini***
***Bir gün işiğina peşkəş eyləyir.***

"Jalə" adlı bu şeirdə poetik bir ovqat üstündə - metaforik düşüncə işığında təbiətin miniatür bir lövhəsi canlandırılıb. Daha sonrakı misralarda isə jalənin sevgisi yolunda fədakarlıqla özünü qurban verməsi ilə - təbiətin sevgi obrazı olan jalə ilə insanın sevgisi arasında oxşarlıq olduğu sanki publisistik bir üslubda şərhini tapır. Əslində bu şərhlə Firavan

müəllim sevginin poetik obrazı kimi götürdüyü jalənin timsalında təbiət sevgisi ilə bəşəri sevgi arasındakı uyğunluğu açıb ortaya qoyur. Bir gecəlik ömrü olan jalə bu dünyaya sevmək üçün gəlib. Sevgilisi ilə onun ömrünə son qoyacaq günəş selidir. O, ömrünü bu sevgiyə qurban verməyə müntəzir olan fədai bir aşiqdir. Necə ki, şam və pərvanə sevgisində pərvanə özünü oda – sevdiyi odun alovuna atıb özünü - cismini fəda edir.

Təbiətdə buna bənzər bir "kəpənək xoşbəxtliyi"də var. Həkim-filosof Hümbət Quliyevin ədəbi müstəviyə gətirmiş olduğu bu bir günlük ömür payı qismət olan həmin kəpənək növü də ancaq sevgilisini tapıb ona qovuşduqdan sonra ömrünü başa vurur. Sevgi dolu bir günlük ömür payı qismətinə düşən bu kəpənəklərlə Firavanın poetik sevgi obrazı kimi kəşf elədiyi təbiətdəki jalə demək olar, eyni taleyi yaşayırlar. Hər iki halda bir günlük (jalədə isə bir gecəlik) ömrü sevgiyə qurban vermək fədakarlığı özünü göstərir. Dərindən düşündükdə bu, sosial aləmdə də belədi: Əsli və Kərəmin sevgisində bəyəm hər iki aşiq bir-birinin oduna yanıb ölmürlərmi? Deməli, sevgidə ifrata varmaq axırda yanmaqla – yanıb kül olmaqla nəticələnir. Bu, ulu təbiətin yaranışdan qanunudur və insan da sosial varlıq olmaqla yanaşı həm də vahid

bölünməz təbiətin (təbii aləmin) ayrılmaz tərkib hissəsidir. Bu səbəbdən də sevgi aləmində bütün canlı və cansız varlıqlar təbii-bioloji aləmin vahid bir parçası olaraq çıxış edir.

Firavan Mahir qızının "Su" adı altında təqdim etdiyi poetik nümunə də cəlbedici ovqat aşılayır:

***Su həyatın özüdür, elə axır sellənir,***
***Həyat da su kimidir, sakit, rəvan və dəli.***
***Dodağa su dəyməsə dodaq yox, qəlb qaralar,***
***Su insanı pak qılar, susuz insan yox olar.***

Bu şeirdə hər şey var: suyun dörd yaradılış ünsüründən biri olması düşüncəsindən tutmuş suyun bədii-metaforik təsvirinə qədər hər şey bu bir bəndlik şeirdə əks olunubdu.

"Dodağa su dəyməsə, dodaq yox, qəlb qaralar". Təkcə bu misra özü həm aforizm kimi öz həqiqi anlamında, həm də məcazi mənasında çox böyük mətləblərə işarə edir. "Su insanı pak qılar" - yəni, gigiyenik baxımdan suyun müstəsna rolu diqqət çəkir, amma eyni zamanda ardınca söylənən "susuz insan yox olar" fikri isə başqa dürlü mənalar kəsb edir: yəni, susuz insan həm mənəvi cəhətdən məhv olar-belə ki, insan pak olmasa, murdar olsa, çirkin olsa, onda insan kimi də dəyərini itirər. Həm də susuz insan və həm də bütün maddi

aləm susuz məhvə məhkumdur fikri burada özünü diktə edir və s.

Firavan Mahir qızının "Ağac" şeiri də təbiəti dərindən müşahidəçiliyin onda oyatdığı poetik ovqatın məhsuludur. Məncə, şairənin "Dostlarım" şeiri ilə bu şeir arasında poetik qohumluq var. Birində təbiət (ağac), digərində isə sosial mühit (dostlara xitabən deyilənlər) məzmun və mündəricə baxımından vahid bir ideyanı daşıyırlar. Dostluq, sədaqət, etibarlılıq hisslərinin önə çəkilməsi hər iki şeirin ana xəttini təşkil edir. Deməyim odur ki, Firavan xanımın istər poetik obraz kimi götürdüyü təbiət lövhələri, istərsə də birbaşa ictimai aləmə münasibətdə söylədikləri – hamısı yüksək poetik təfəkkürün bəhrəsidir. Hamısı da uğurlu tapıntılar, bədii sözün işığında deyilən dəyərli poetik fikirlərdir. Sevinirəm ki, sözümüzü urvatdan düşməyə qoymayan belə gənclərimiz var. Poeziya aləminə gəlişin mübarək olsun, poeziyamızda jaləni sevgi rəmzi kimi kəşf edən Firavan xanım. Bəlkə də elə o fədakar sən özünsən!

**Şakir Albalıyev,**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

# DUYĞULAR DOLDURUR SAF QƏLBİMİZİ



# SƏN

Sevgimizin ünvanı sən,
Qəlbimizin ümmanı sən.
Sənsən hər şeyi yaradan.
Bu dünyanın əvvəli Sən,
axırı Sən.

Bir balaca ürək verdin,
Dərya boyda sevgi qoydun,
O sevgilə alovlandım,
Atəşinlə yandım, qandım.

Sən ululardan ulusan,
Bəşərin tək qürurusan.
Rəhmətində hey yuyunsam
Dərdlərimlə boy ataram,
Sən varsansa, mən də varam.

# QƏLBİMİN TƏK SAHİBİ

Atəşində yanar ürək
Səni gəzib hey axtarar,
Səni daim anar ürək,
Sənsiz həmən viran qalar.

Qəlbimi sənə açmişam,
Dərdimi tək sən bilirsən.
Səninlə mən göz açmişam,
Dünyam boyda sevgim sənsən.

Sən qəlbimin tək sahibi,
Tək ümidin, güman yerim.
Mənsə sənin tək qəribin,
Dindirməsən nə diləyim?!

# BU GÜLÜN ŞEHİNDƏ GÖRÜRƏM SƏNİ

Bəzən tək qaldığım zamanlar olur,
Üzümü tuturam sirli səmaya.
Səni axtardığım zamanlar olur,
Sənsə içimdəsən, sevginsə maya.

O sevgi yaşadır məni hər zaman,
O sevgi qəlbimin eşq dəryasıdır,
O sevgi əlimdən tutur hər zaman,
Sevgisiz ürəyim qəm dəryasıdır.

Bəzən bir mehinlə siğal çəkirsən
Dərdimi o mehin alıb aparır.
Deyirlər nə qədər dərdin var sənin?
Sənin bir sığalın dərdimi alır.

Dünyaya gələndən arxasan mənə,
Dayaqsan, heç zaman buraxmamısan,
Mən səni unudan günlərim olub,
Sən məni heç zaman unutmamısan.

Bir gülün şehində görürəm səni,
Çiçəklər açanda qəlbimə dolsan,
Bir dalğın baxışda anıram səni,
Qəlbim alışanda əlimdən tutsan.

Səni hər gün daha artıq sevirəm,
Sevgimin ölçüsü bitib-tükənmir,
Hələ neçə vüsal gözləyir məni,
Hicranın nəğməsi vüsal səslənir.

## LİMAN

Ağılla ürəyi götür dostluğa,
Hisslərə qapılıb dünyaya dalma.
Ağılla, ürəklə dünya qurana,
Sən də yoldaşlıq et, sevgini danma.

Gəminin yolçusu ağılın olsun,
Sahilə aparsın səni ürəyin.
Dalğalar aparsa səni limana,
Ürəklə ağılın xəyallar qursun.

Qoy gəmin limanda səni unutsun,
Ürəyin yol alsın dənizə sarı,
Qorxma ki, bu dəniz səni unutsun,
Meylini hər an sal dənizə barı.

Bil ki, bu dənizdə min xatirə var,
Ləpələr pıçıldar olub bitəni,
Dalğalar özündən nağıl yaradar,
İçində saxlayar sezdiklərini.

## ƏMANƏT

Dörd şey bil, insanın qiyafəsidir,
Onu gəzdirəcək üstündə hər an,
Mənalı həyatın sevgi dərsidir,
Xoşbəxt edəcəkdir onu hər zaman.

Əmanət deyilən çox vacib bir ad,
Üstünə titrəyib qoruyacaqdır.
Həyat əmanəti, can əmanəti,
İnsan əmanətlə qocalacaqdır.

Hər yerdə hər zaman doğrunu desə,
Yalanı kandara heç buraxmasa,
Həyatda doğrunu yoldaşı seçsə,
Düz yoldan, düz sözdən kaş ki, azmasa.

Gözəl yaradıbdr yaradan onu,
Gözəllik nə gözdə, nə qaşda imiş,
İnsanın gözəllik axtarışları
Həm gözəl qəlbində, həm dilindəymiş.

Dünya yaranandan min bir nemət var
Önünə sərilən kainat boyda.
Əlini uzadıb halal loxmaya,
Gözünü dikmə sən başqa sevdaya.

Əmanət doğru söz, gözəl xasiyyət,
Bunların hamısı ərmağanımdır.
Halallıqla ömrü sürüb vur başa,
Gözü tox, könlü tox sevgiylə yaşa.



## ZAMAN

Qəribə hisslərin ağuşundayam,
Ağlımamı sorsam yoxsa könlümə,
Mən pislə yaxşının savaşındayam,
Ağlım da, könlüm də baxmır sözümə.

Zamana buraxsam hər ötən anı,
Zamanla yarışsam zamana sarı,
Yel kimi cəld çapan zamanın atı
Tozuna qərq edər qışı, baharı.

Ey zaman, mənimçün çox müqəddəssən,
Sadə duyğuların sevgisi sənsən,
Tilovlar əlində keşik çəkirsən,
Birini qaldırıb, birin əzirsən.

Səndən mən dərdimə dərman istədim,
Bu sınıq könlümə qübar istədim,
Soyuq qış gecəsi nübar istədim,
Ağlım da, könlüm də bəsindir dedi,
Zamanla yarışma, zaman ol dedi.

## FIRTINA

Fırtına qopur ki, yer üzərində
Önünə çıxanı sürüyüb keçir.
Fırtına görməmiş pis kol-kosları
Tozuna qərq edib soyuq daş edir.

Nədən bu fırtına bütün dünyanı
Alıb ağuşuna, amalı nədir?!
Köhnəni ləğv edib dağıtmaqdırsa,
Ev yıxan fırtına evi tikərmi?

Gizli bir plandır yüyürüb gedir,
Allah axrımızı xeyrə calasın.
Qurulub saattək hey tik-tak edir,
Yamanlar uduzsun, yaxşı qazansın.

## AĞ-QARA

Hələ yaşamaqçün çox səbəbim var,
Bircə bəhanəm var, ömür bitməyib.
Bir qədər yazılıb bəndəyə haqdan,
Yazılan yazılar bil, silinməyib.

Bu dünya görünür sənə birümman,
Bir dərya, bitməyən soyuq bir gecə,
Dərya da, ümman da bitər bir yerdə,
Ruhunu soraqlar dünya gizlicə.

Ruhunu soraqlar bu dünya sənin,
Gəzər hey arxanca qarabaqara.
Sonuna yetişər qısa ömrünün,
Bu sonluq ya ağdır, ya da ki qara.



## DAHİ BƏXTİYAR

*Bəxtiyar Vahabzadənin doğum gününə*

Bu gün ad gününü qeyd edir hamı,
Ey geniş ürəkli vətən övladı!
Sən vətən qoynunda boy atmış çiçək,
Səni qoxlamağa yığışmış millət,
Səni yad edirlər, xoş söz deyirlər,
Yaşanmış ömrünü vərəqləyirlər.

İndi bütün dünya tanıyır səni,
Hər zaman ucaltdın sən bu vətəni.
Fəxr edir bu millət belə oğlu var
Sən qürurumuzsan, dahi Bəxtiyar.

## SINAQ

Qaranlıq gecənin ağuşundayam,
Dünənlə bugünün savaşındayam.
Bilmirəm ömrümün nə yaşındayam,
İllər qova-qova sınayır bizi.

Sınayır bu dünya, sınayır zaman,
Sınayır ömürdən sildiyimiz an.
Sınayır dostların, sınayır aşnan,
Duyğular doldurur saf qəlbimizi.

## QƏMLİ CAN

Boynunu bükmüsən, gözlərində qəm,
Taleyin yükünü çəkə bilmirsən.
Dilinin altında qalaq-qalaq qəm,
Ürəyi qızdırıb deyə bilmirsən.

Kim sənin dərdini anlayacaqdır?
Anlayan həyatda ana, atadır.
Çiynindəki yükün əzabı ağır,
Onlar vidalaşıb haqq yolundadır.

Bir baxış, bir duruş sezər uzaqdan,
Dərdini anlayıb gözləri dolar.
Ürəyində təpər tapsa, bil haqdan
Gəlib gözlərinin nəmini yalar.

## ALTMIŞMI, YETMİŞMİ

Görəsən, bir ömür neçə bahardır
Altmışmı, yetmişmi, yoxsa...
        üç nöqtə.
Sayırıq illəri, hər günümüzü.

Hər anı müqəddəs bir an bilmirik,
Sevmirik üfüqdən gələn xoş mehi.
Soyuq qarlı qışı, üşüyən şehi,
Sevmirik yolunda getməyən işi,
Deyirik fənadır zaman gərdişi.

Gəl gör ki, sən deyən doğru söz olsa,
Sevdiyin baharlar ömrünə dolsa.
Sevmədiklərin bəs neyləyəcəksən?
Onları məhv etsən, birdən yox olsa.

Onda ruhun yaman əzab çəkəcək,
Sevdiklərin sənə fəryad edəcək.

## YARADAN

Duyğunun yolunu bil!
Gör haralardan keçir?
Min qəlbin döyüntüsü,
Min könlün hönkürtüsü,
Duyulacaq yollarda.
Çünki sənsizdi qəlbim,
Duyğularım üşüyür.
Hisslərimi hər zaman
Sənsiz qorxu bürüyür.
Sənsiz hər yer qaranlıq,
Sənsiz dünya viranlıq.
Sən atəşsən, mən yanıq,
Közlənərəm bir anlıq.
Sevgini,
istəyini duymuşam
mən hər zaman.
Sən məni bu sevgidən
    məhrum etmə,
Yaradan!

## DOSTLARIM

Dostlarım var cürbəcür
Alçaqboylu və hündür.
Mənimlə niyə dostsuz?
Soruşuram birbəbir.
Biri dedi: "Vəfan çox"
Sonra dedi: "Səndən yox,
Bir dənəsən, təkcəsən,
Sən hamını sevirsən".
Güzgünün qarşısında
Baxıram öz əksimə
Dost kimi dostcasına
Mən görəni heç zaman
dostlarım görməyəcək.
Möhlət qoysaz danışam
Vəfanın heç kölgəsi
Yox mənim gözlərimdə.
Bəlkə məndə ən çox da
Görmək istədiyinizi
Deyirsiniz üzümə.

## QOCA DOST

Səni ziyarət etdim, gördüm çox qocalmısan,
Səsinsə həmin səsdir incə, titrək və məlhəm.
Gözlərinsə hər zaman üfüqlərdə dolaşır,
Sən qocalmamısan ki, sadəcə yaşlanmısan.

Bu yaş bəlkə də sənə çox-çox adi görünür,
Hələ neçə arzuyla yaşlı ürək döyünür.
Gözlərinin içində yaşlı ümid görünür,
Baxışların hər zaman bu yollarda gəzinir.
Bu baxışlar neçə min xatirəni danışır,
Xatirə anıldıqca ürəklər də alışır.

## MƏKTUBUM

Sevgi dolu dünyadan sizə məktub yazıram,
Könlümün min halından limanına üzürəm,
Dünya köhnə dünyadır
bunu mən də sezirəm.
Bir sevgini yaşadım qəlbimdə dolu-dolu,
Bu sevgi dedi mənə həyatda doğru yolu,
Müqəddəsdir, əzizdir, ulularдан da ulu,
Ruhumun bağçaları gül ətri ilə dolu.

## YOX OLSUN QARA BULUD

Alıb başımı qaçsam bu dünyanın əlindən,
Dünya qursam özümə
duyğunun çələngindən,
Orda sevgi boy atıb kəhkəşana ucalsa,
Orda yalan qarışıb dərin sularda batsa,
Bülbül gülə oxusa, gül də tikanlamasa,
Duyğu dolu dünyada hamı azad yaşasa.

Mən dünyanı yenidən dəyişmək istəyirəm,
Hər şeyi alt-üst edib yeni nəfəs, yeni can,
Yeni səs istəyirəm.
İstəyirəm bu dünya bir də qara geyməsin,
Cavan qızlar, analar həsrətdən kövrəlməsin,
Atalar qeyrətindən ikiqat bükülməsin.

Yox olsun qara bulud,
yox olsun pis həris ruh,
Təzələnsin, tərtəmiz dünya sevgi geyinsin,
Dərdi-qəmi unutsun.

## YAŞLAR QƏLBƏ AXDIQCA

Gözündəki yaşdımı?
Yaşlaşmış sirdaşdımı?
Qəlbinə axıtdıqca
həzin-həzin səslənir,
Gül qoxulu sözlərlə
min nəğmə bəstələnir.
Dinlədikcə...
O kövrək sözlərin bəstəsindən
Min bir hal izhar olur,
Qəlbin dərinliyində
vicdanın ağuşuna
tökülən sual olur.
Sözlər qəlbimə hayan,
bu halım Rəbbə ayan,
Vicdanım, yatma oyan!
Oyan, susdur sən məni!
Qəmli gözlər baxdıqca,
Yaşlar qəlbə axdıqca,
Sevgi qəlbə yol alır,
İnsan sevgiylə dolur.

# FİKİR

Yuxum qaçır sənsizlikdən,
boğulan yad səssizlikdən.
Yaddır mənə bu el-oba,
yaddır mənə torpaq-səma.
Karvan-karvan fikir keçir
ağlımın hər bucağından,
Ruhum yaman əzab çəkir
fikirlərin doğuşundan.
Hər fikir min bir yol açır
qəlbimin dərinliyinə,
Ürəyim dözməyib qaçır
başqa fikrin enişinə,
Yoxuş-yoxuş yol almışam
fikirlərdən uzaq düşəm,
Əgər uzaq düşürsənsə
yeni fikrin əlindəsən.

# GÜMAN

Səssizliyi gəzirəm qəlbimin harayında
Sevgimin sonu yoxdur könlümün sarayında.
Hey danışıb, gülərəm, dərdli gəzən deyiləm
Dərdimin tək sahibi ürəyimdir hayında,
Harayında.

Sevda dalğası məni vurub sahilə saldı
O sahildə neçə min sevgi qəlbimə yazdı,
Dinlədim asta-asta sirrini,həm sehrini,
Səndənsə tək qəlbimdə
bir ümman güman qaldı.

# ÜMİD

Ümid gözlərimin bəbəklərində
Həyacan təbilli ağrıya dönüb.
Sevginin atəşi, çırağı sönüb,
Sabahlar ümidi yelə ötürüb.

Mən ki, gecə-gündüz
ümid səpmişəm
Getdiyim yolların
hər döngəsinə.
Qayıdıb yolları
təkrar dönəndə
Ümidlər aparsın məni qəlbimə.

## XƏZƏL OLDUM

Payız gəldi həm havaya,
həm ömrümə bu gecə,
Xatirələr yarpaqtəki saraldı.
Mən əslində yaşayırdım gizlicə,
Heç bilmədim hardan hara apardı.

Xəzəl oldu yaşadığım hər anım,
Köksüm üstdən birdən yerə töküldü.
Bir baxdım ki, xəzəl olub hər yanım,
Bağrım yandı, bağrım başı söküldü.

Bir yağışın, bir küləyin xətrinə
Xatirəylə öz ömrümü bəzədim.
Xəzəl olmuş xatirələr, sən demə
Yağış altda gündən-günə təzəldi.

Xəzəl yenə köklərimə qarışdı,
Xoş yaz çağı günəş vurdu oyatdı.
Mən yenidən xəzəlimdən doğuldum,
Xatirələr fikirlərlə yarışdı.

## BİR QADIN ƏLİNDƏ SON ÜMİDLƏRİ

Soyuq divarların arasındayam,
Soyuğun kəsəri dondurur məni.
Bilmirəm ömrümün yuxusundayam,
Həsrətli yuxular buraxmır məni.

Bir qadın əlində son ümidləri,
Gəlir aram-aram yolum üstündə.
Dağılmış saçları sərin küləkdə,
Hayqırır fəryadı qopur içində.

Tənhalaşmış gözlər ümid soraqlar,
Hər kəsdən könlünə bir pay varaqlar.
Son ümidin çoxdan işığı sönüb,
Yaşamaqçün əldə fənər çıraqlar.

Yandırır könlündə son ümid şamı,
Baxır yaratdığı köhnə evinə.
Son dəfə əkdiyi qızılgülünə,
Bir də ovucunda solmuş ömrünə.

Nə qədər doğmadır köhnə divarlar,
Hər daşı onunçun bir tarix yazıb.
Gözünün önündə daşlaşmış tarix,
Onunçun bir daha özünü yazır.

Artıq sən də dönüb daş olacaqsan,
Sənintək uzaqdan nəzər salıb biz
Daşlaşmış əksini seyr edəcəyik.
Bir köhnə, buz kimi soyuq ruhuq biz.

# TƏNHALIQ

Baxışlar altında
yatan tənhalıq
Qəlbin gülüşünü
nə tez unudub?
Sən gülüşdən yana
yarımayıbsan
Səssizlik hayqıran
fəryadı udub.

Bu səssizlik sənin sənsizliyindir,
Sənsiz davranırsan ətrafına da.
Sən, sən olmadan bir dünya qurmusan,
Səsini boğmusan sənsiz dünyanda.

Bilmirəm sən kimsən hansı səssizsən,
Cismani, ruhani zalım bir hissən.

# QONAĞIM

Səni qonaq eləməkçün
səssiz lal gecələrə,
Kitabları ələk-vələk
elədim ki, gələsən.
Ümid səpdim gecələrdən
sənsiz pay gündüzlərə,
Sənə sevgim bitməyəcək
gəlməsən də biləsən.

# ÇİVİ

Çivini vurursan hərdən israrla
Yaratmaq, yaşatmaq üçün eşq ilə.
Sənin qəlbindəki düşüncələrin
Yorur ürəyini vuruşmaq ilə.

Ürəyin odunu qatırsan yenə
Hər vuruş anında sən o çiviyə.
Bir kiçik dünyanı qurursan yenə
Ümidli anları yükləyib belə.

Ürək nəyə dözsün, dil nəyə dözsün?!
Ağıl nəyə dözsün, bel nəyə dözsün?!
Həyat sınaqlardan çıxarıb səni
Çivini çaxmayan əl nəyə dözsün?!

Hər anın dəyəri səninçün özəl,
Çox sınaqdan keçib çividəki əl.
Gözlərə gizlənən həsrətli kədər,
Danışır soruşur bu ömür hədər?

Yox, hədər olanmaz, bil, ömrün sənin,
Dünya qulluğunda dayanıb sənin.
Yaradan beyhudə yaratmayıbdır.
Kainatı sərib önünə sənin.

# QƏLƏMİM

Qələmim darıxıb fikirlərimçün
Çoxdandır yazmıram
onla dərdimi.
Qələm həvəslənir yaratmaq üçün
Fikrimdən süzülən gizli
sirləri
Tökür ağ vərəqin
sətirlərinə.
Bu qələm dərdimi, sirrimi
bilir,
Könlümdəkiləri hey dilləndirir.
Doğmadır,
əzizdir bu qələm mənə
Təzə fikirləri o səsləndirir.

# SIRALANIB AĞACLAR İNSAN KİMİ YOLLARA



## GÜNƏŞ

Bu günəş nə gözəl çıxır üfüqdən,
Qırmızı don geyib nazla yeriyir.
Günəş salamlayır bizi üfüqdən,
Əziz sevgisindən min nəğmə deyir.

Yaradan yaradıb günəşi, səni,
Günəş sənin üçün hər gün yol gedir,
Eşqdən pay aldığı saf tellərini,
O kiçik dünyana ərmağan edir.

Günəş tək halıyla bütün dünyanı
Hey gəzir, dolaşır yaşatmaq üçün.
Dünya yaranandan onun amalı
Yaşayıb, yaşatmaq yaradan üçün.

# JALƏ

Günəş işıldayır yaşıllıqlarda,
Jalələr insana sevgidən deyir.
Bütün bir gecəni jalə yollarda,
Gözləri yol çəkib günü gözləyir.

Qovuşmaq nə gözəl hissdir, ay Allah,
Jalənin üzündə günəş parlayır,
Jalə elə bil ki, jaləliyini
Bir gün işiğina peşkəş eyləyir.

İnsan da belədir, sevəndə heç vaxt
Özünü, sözünü söyləyə bilməz.
O sadəcə yarın baxışlarıyla
Dinlənər, dillənər, gizlənə bilməz.

## SU

Su axır şırıl-şırıl, həyat verir insana
İnsan sudan həzz alır, su içir qana-qana,
Suyun şırıltısı da başqa aləm danışır,
O axdıqca dupduru hisslər də aşıb daşır.

Su həyatın özüdür, elə axır sellənir,
Həyat da su kimidir, sakit, rəvan və dəli.
Dodağa su dəyməsə dodaq yox,
qəlb qaralar,
Su insanı pak qılar, susuz insan yox olar.

## ULDUZ

Hər ulduzun bir sirri var
Göy üzünə səpələnib.
Hərəsi bu dünya boyda sirr gizlədib.
İçindəki sirri-sehri özü bilir.
Gecələri ulduzlarla
Sarmaş-dolaş olan bilir.
Asiman –
sirlərlə dolu
ulduzların daxmasıdır.
Bu sirlərə heyrət ilə baxmaq isə
İnsanların lap keçmişdən
Bu günədək
Vərdişidir, qaydasıdır.

# BULUD

Buludlar göylərdə səmazən kimi,
Yağmurla dolarlar sirli eşq üçün.
Sən demə, ucalan hər azan kimi
Dolub boşalarlar gizli eşq üçün.

Günəş parıldayar bulud ardından,
Günəşi görərsən buluda baxsan,
Bulud hey gözləyər günəşdən fərman,
İzin verilərsə eşqi çağlayar,
Eşqinə doyunca bulud ağlayar.

Bulud həm torpağa, günəşə həsrət,
Sevgini daddırmaq istər torpağa,
Səbrlə oturub gözləyər möhlət,
İçi eşqlə dolsun yağsın torpağa.

Qandıqca eşqini bulud böyüyər,
Qosqoca bir səma sığmaz içinə.
Buludun həsrəti səmanı dələr,
Həsrətlə, eşq ilə torpaq sevinər.

# GÖY QURŞAĞI

Rəngli boyalı səma
Min rəngin qurşağı var,
Göy üzü boyalanıb,
Göy qurşağı yaranıb.

Göy qurşağı,
Rəng dağı,
Ümidli sevgi bağı.
Xoşbəxtlik damlaları
vurur üzümə sarı.

Yaşıl qırmızı, sarı,
həyatın min rəngidir,
Könlümə hüzur verən
rənglərin ahəngidir.

Göy qurşağı sarısın
ömrümün hər anını,
Səma sevgi çiləsin,
sevgi yağışı yağsın.
Hüzur küləyi əssin,
bürüsün bu cahanı.

# AY

Saf təmiz bir işıq var pəncərəmin önündə,
Ay baxır asimandan
min bir dilək qəlbimdə,
Bu işıq ümid dolu gələcəyin əksidir.
Yaşadığım anlara sevgi
Duyğu,
Rəng qatan
Gecənin simgəsidir.
Aysız zülmətdir gecə!
Nur boyayır gecənin qaranlıq sahilinə
Ay sevgidən don biçir
Gecənin zülmətinə.
Ayın nuru günəşin varlığını
Pay verir,
Sabah sevgidən doğan həsrətli gül şehinə.



## AĞAC

Biz yarpağı hər zaman tanıyırıq yaşıldan,
Görəsən, yarpaq nədir?
        Yaşıl, yoxsa yaşadan.
Bir ağacın budağı yarpağından tanınar,
Yarpaqlar yaşlandıqca ağaclar da qocalar.

Ağac qürurlandıqca meyvəyə meylin salar.
Meyvə nübarlandıqca ağac təvazulanar.
Mütəvazi ağac da hamı kimi qocalar,
Meyvə onu tərk edər, yaşıl yarpaq saralar.

Saralıb vidalaşar, ağacı tənha qoyar.
Sakit, tənha bir çöldə ağac tənha yaşayar,
Meyvə vəfasızlanar, yarpaq da fani olar.
Tənha görünən ağac sonda tapar bir əlac,
Könlünü dinlədikcə, ruhuna hay verdikcə,
Əsl sevgisin tapar,
        Eşqə sarı yol alar.

## DAŞ

Bir balaca daşam mən
Dağın köksündə duran.
İllərin həsrətini,
yolların toz yükünü,
Canlının dərd-qəmini
alıb köksündə tutan
Daşam mən!
Dərdlərə sirdaşam mən!
Qəlblərə yoldaşam mən!
Bağrına daş basaraq
daşlaşmış bir daşam mən,
Sakit-səssiz dayanmış,
sükutundan bozlaşmış,
Ruhundan çılpaqlaşmış
daşam mən.
Hər kəsdən bir zərrə
dərd yığmışam
bu daş qəlbə,
Dərdlər sönük görünür
bu daş qəlbin köksündə.
Sən də daş deyib keçmə,
Daşlar adi gəlməsin
Sakit-soysuz və ruhsuz
gözünə görünməsin.
Bilsən nə qədər dərdi, səri var
hər bir daşın,
Soruşsan danışacaq

Bilmədiyin yerlərdən
nələr pıçıldayacaq...
Sən də soyuq daş kimi
daşın yanından ötmə,
Daşa tənə yağdırıb,
sən də bir daşa dönmə!
Daş torpağa yoldaşdır,
Yerə, göyə sirdaşdır,
Daş zamana qardaşdır.
Sən də daşlaşma ölmə!

## UCALIB KƏHKƏŞANA

Sıralanıb ağaclar insan kimi yollara,
Bəzisi əyri-üyrü, bəzisi də yol alıb
Ucalıb kəhkəşana.
Bu ağaclar insana sevgidən xəbər verir,
Qayğıdan xəbər verir.
Yarpaqlar pıçıltıyla keçmişləri dillənir.
Hər ağacda min rəngdə çaları var yaşılın,
Bu rəng nəğmə söyləyir,
Qəlbimin sirdaşının
qapılarını açır.
Sevgi dolu üzümə
Nurunu əlləriylə pay verir
Pənah verir,
Yaşlı qəmli gözümə.

# ÇİNAR

Külək qoca çinarı
Ora-bura sovurur.
Yarpaqları gül açıb
Tumurcuqlar böyüyür.
Sən, ey covğuna, qara,
Sinə gərən, ay çinar.
Sən yayın istisinə
Mehin verən, ay çinar,
Bu qədər keşməkeşə dayanmaq
çoxmu çətin?
Yoxsa sən öyrəşmisən
Çətin ağır günlərin
Sənə töhvə verdiyi
Səbr ilə kökünə
dayanıb dirənməyi.
Heyranam hər fəsildə
Bir hala düşməyinə
Qarın soyuq günündən
Sonra yazın gününə
Tumurcuqla boy atıb
Günəşə hay vermənə.

# KÜLƏK

Bu gecə qonaqsan sən pəncərəmdə,
Özündən çox çıxıb
                    hirslənən külək.
Görəsən, nə demək istəyirsən sən,
Ay yeri, göyləri inlədən külək?

Belə hirsli-hirsli hansı diyardan
Əsib pəncərəmə qonmusan, külək?
Hay-haray salıbsan bu gecə vaxtı,
Nədir istədiyin bir söylə görək.

Səndən bərk qorxubdur
                    cavan, qoca da.
Evinə çəkilib hamı gizlicə,
          sənsə pəncərəmə qonub
Hələ də yatmağa qoymursan
                    məni bu gecə.

# ŞƏHİDİMİN GÖZLƏRİNDƏ DAŞLAŞDIM MƏN



# TƏNHA ŞƏHİD MƏZARI

Bir tək şəhid məzarı yolun kənarın kəsib,
Ayparanın kölgəsi məzarına hay verib.
Bir ananın müqəddəs qüruru, ya harayı
Bu məzarı yüksəldib edib tarix sarayı?!

Qulaq ver bu torpağa duyacaqsan səsini
Sənə danışacaqdır başına gələnləri.

Min şəhidə şahidlik edir tənha bu məzar,
Yaşatdığı bu birlik tək amala söykənib
      Tarix boyunca uzar.

Bu tək şəhid məzarı səfərbərlik dərsidir,
Bir tək amal uğrunda
      baş qoyduğu minlərlə
       Şəhidin kölgəsidir.



## MÜZƏFFƏR ORDUMUZ

Bu müzəffər ordunun
vətənində daş olmaq,
Beli bükülmüş atanın
gözündəki yaş olmaq,
Şəhidimin bəzənməmiş
xonçasında qaş olmaq,
Qanla yazılmış zəfərə
yol olmaq, yoldaş olmaq.
Bu tale yazıldı bizə
gedən haqq savaşında,
İgidlərin tarix yazdı
Bayraqlar savaşında.

## QOVUŞMAYAN SEVGİMİZ

Hər axşam pəncərəm önündən Səni,
Həm də izləyirəm baxışlarını.
Alıram rüzgarın şirin mehindən
Gömürəm qəlbimə, içimə sarı.
Yollar amansızmış,
yollar amansız.
Ayırar bir anda neçə vüsalı
Həsrətim yoluma ümid çırağı.
Görən, nə vaxt yorar
bu həsrət səni?!
Gələr qovuşdurar sevgimə məni?.

# BİRCƏ ÜMİDİ VAR

*Şəhid xanımlarına*

"Səndən arxayınam", deyib gedirsən,
Bir qadın çiyninə yükü verirsən.
Nə qədər arxayın, nə qədər rahat,
Bir əllə hər şeyi yıxıb gedirsən.
Qadının gözünün yaşı qurudu,
Məlun nəzərlərlə baxır dünyaya
Bu dünya ona yad,
          O, dünyaya yad,
Həsrəti bitəndə olacaq azad.
Bircə ümidi var,
                    sevirsən onu,
Ona hər şeyini əmanət edib.
Bircə ümidi var,
               İllər keçsə də
Cənnətə alacan əmanətini.

## GECƏ ADAMI

Gecələri yatmıram
yuxu getmir gözümə.
Bəlkə də körpələrtək,
Gündüzümü verirəm
Gecələrin özünə.
Bütün gecəni baxır gözlərin üfüqlərə,
Günəşi axtarıram
Zülmətimi yol salıb
Günəşli üfüqlərə.

Gecə yaman ağırdır,
Saatın əqrəbi də əleyhimə işləyir,
Yuxum ərşə çəkilir, sabah məni səsləyir.



# KEÇMİŞDƏN BUGÜNƏ

Bir ulusun harayı var içimdə,
Keçmişindən bu gününə yol gedir.
Mənzil uzaq, arzu min bir biçimdə,
Dərya boyda bir tarixə səslənir.

Səslənir ki, bəlkə səsi duyulsun,
Şəhid ruhu buludlardan süzülsün,
Namərdlərin kökü birdən kəsilsin.
Bu ulusun dünya boyda dərdi var.

Hələ sağalmayıb qanlı yaralar,
Torpağımda baş qaldıran lalələr.
Bu ulusa bir tarixçə söyləyir,
Qılıncını qınında saxla deyir.

Bu qılıncın yaşı tamam qədimdir,
Neçə-neçə düşmənin qənimidir.

# İGİDİM

Qar altında yatan igid!
Gözlərini bu dünyadan,
  Sevdiyindən,
   Balasından çəkən igid!
  De,
       bu yolculuq haraya
Uzun-uzun yol gedirsən.
Sevincindən hey uçursan,
Bəlkə dönüb bir baxasan
Sənin üçün gözlərinin
   Giləsini hey doldurub boşaldana.
Qəmli-qəmli yollarına
   Dikilib mat qalanlara.
Dönsən bizə nə deyərsən?!
Yenə bizi düşünüb sən,
Bir zabitin ədasıyla
Əmr verib tapşırarsan!
Mənə görə sən ağlama!
Heç vaxt mənə yas saxlama!
Necə ki, mən dik baxmışam
Qarşımdakı ölüm adlı
Yollarımı ayırana,
Bu ki, hələ bir son deyil.
Səni burda gözləyəcəm
Salam yayıb
  Qovuşmağa!

# KƏDƏRLİ QADIN

Kədəri gözündə gizlədən qadın,
Qəmdən ürəyini sızladan qadın,
Bir qara buludu dalınca salıb
Çiçək yanağından öpdürən qadın.

Bu qəmi kədəri büküb örpəyə
Qəlbinə daş yumaq bağlayacaqsan.
Bu qəmi kədəri verib bir yelə
Xəfif yel əsdikcə ağlayacaqsan.

Bu qəmin kədərin içində yenə
Gülüş qondurursan nəmli gözünə.
Bu qəm kədərini yaşayanlardan
Utanıb tapmırsan macal özünə.

Sən ağır yükləri alıb belinə
Yenə gedəcəksən sabaha sarı.
Sənə ümid verən ümidlər yenə
Alıb da aparsa sabaha barı.

Sabahlar aydınlıq, sabahlar işıq.
Qəmli gözlərinə nur çiləyəcək
Səni səndən alan bu dərd, bu kədər
Ümid çeşməsitək çiçəkləyəcək.

# DAŞ ÜRƏKLİ ATALAR

Daş ürəkli desələr də
Ürəyinə daş bağladın
Daşa sirdaş olduğunu
Yoldaş, qardaş olduğunu,
Ürəyində sən saxladın.
Şəhidinin gözlərində
Əllərində daşlaşdın sən
Dondu həyat gözlərində.
Sənin üçün daşlaşmışdı
Ürəyində hər kamın,
    hər istəyin də.
Daşa dönən arzuları yaşadın sən
Daşla Sirdaş olmağı da bacardın sən
 Öyrəndin sən.
 Daş ürəkli insanlardı
Bu dünyanı mehvərindən oynadanlar.
Daşa qardaş olanlardı
 Bu dünyanın sabahına
  Qanlarıyla, canlarıyla
    Yol tutanlar.

## ŞƏKLİN GÖZLƏRİMDƏ

Gözlərinin sirri gəlib qəlbimə
Sən gülürsən, məndə yaşlar süzülür.
Gülüşlərin şəkillərdən, sən demə,
Oğrun-oğrun bizə baxıb üzülür.

Bu dünyanı yük elədin belinə,
Dərdi, səri sən xəbərsiz yaşadın.
Ürəyində cücərtdiyin arzuna
Daşa donmüş xəyalları daşıdın.

## YUXULARIM

Yuxular ərşə çəkilib...
Görəsən, bu adi sözdü?
Yaşamasan həm yuxunu, həm də ərşi,
Nə biləsən yuxun ərşdən nə xəbəri?
Dilin tarix yüklü sadiq türküsüdür.
Yuxusunu qarışdıran
  Gözlərini ulduzlarla sayrışdıran
    İnsanların öyküsüdür.
Gözü yolda olanların
Sevdasını amalına qatanların
Eşqin izin soraqlayıb tapanların
Ürəyinin yanğısıdır, tüstüsüdür.

# SƏNSİZ

Yenə qışın havası,
küləyi, yağışı var.
Qapımı döyəcləyir
incə, narın yağan qar.
Səni gözləyirəm mən...
Qardan əvvəl qapımı
Döyüb çağırardın sən.
Gözüm yol çəkir yaman
Deyirəm bir gələsən
Çıxıb havaya, elə
Qoşa-qoşa gəzişək
Ağacların altında
Qar yağışı sevişək.
Əlimi aparıram
Çaşıb qapıya sarı
Sənə səslənirəm mən
Hay ver səsimə barı.
Birdən gözüm qaralır.
Boğuluram havadan.
Qardakı eşq nurunu
Mən sezmirəm havadan.
Sən artıq yoxsan, demə
Unutmuşam qəfildən.
Qarın narın dənəsi
Süzülübdür üzümdən.
Anidən ayılmışam
Axı çoxdan getmisən,

Gözlərimdəki qarı,
Üzumdəki şaxtanı
Dondurub qapıda sən
Birdəfəlik itmisən.

## UŞAQLIĞIM

Bilsən necə darıxmışam
Qayğısız xoş günlərimçün,
Böyüdükcə qəribləşir dünya mənə,
Yaşlandıqca qəribsəmiş
Ney kimiyəm,
Soyuq, quru daşa dönmüş
Hissiz, ruhsuz, key kimiyəm.
Nə vaxt səni itirdim mən,
Nə vaxt yarı yolda qoydum,
Böyüməyə can atdıqca,
Səni bəlkə bir kölgədə,
Bəlkə sinif otağında,
Ya bir kitab arasında
Təzdən açıb oxumaqçün
Lap sonuncu rəfdə qoydum.



# NAXIŞLARIN DİLİNDƏYƏM

## NAXIŞ DİLİ

Naxış-naxış yol almısan
Bir baxışı ovsunlayıb
Sən köksündə saxlamısan
Bu naxışın seyrangahı
Uzanıbdır keçmişinə
Bizsə onu tac etmişik
Evimizin ən müqəddəs köşəsinə.

***

Sevgimizdir süzülübdür
Könlümüzün yol aldığı
Kahkaşana.
Üfüqlərdən sıyrılıbdır,
Günəşini salamlayıb,
Sevgisini bu dünyaya paylamağa.
Hər naxışda sevgisini,
Həsrətini,
Qürurunu gizlədibdir.
Bir naxışa sirrin verib ,
Əsrlərlə bəsləyibdir.
Hər ilmədə həsrətindən
Bir rəng qatıb
Saraldıbdır gözlərini,
Sonra çatdığı vüsaldan
Nəğmə qoşub
Bəzəyibdir sözlərini.

***

Bir naxışda həkk olunub
Qara sünbül saçlarının,
  Küləklərlə savaşdığı.
Köhlən atlar arxasınca
Gözlərini sevdiyinin
Yollarına səpələyib
Həsrətiylə dalaşdığı.
Naçar qalıb oturubdur
Göz yaşını ovucundan
Saplarıyla naxışlara
    İşləməyə,
Bu həsrəti bağlayıbdır
Ürəyindən süzülən ip, ilmələrə.

# MƏKTƏB YOLLARI



## ƏN GÖZƏL ZİNƏTİMİZ

Qələm alıb əlimə,
qulaq verib qəlbimə.
Eşitdiyim hər səsi
mən tökmək istəyirəm
bu ağ, təmiz vərəqə.
Uşaq gülüşləriylə dolub daşan dünyanı
Anlatmaq istəyirəm duya bilən hər kəsə.
Bir körpənin gülüşü ananın gözlərindən
Süzülər qəlb evinə
Aşıb daşar arzular
Ananın ürəyində
sabaha ümid doğar.
Sevgi, istək çoxalar.
Ana öz övladını
öpüb bağrına bassa
Bütün dünya sevinər
Bu sevgi dünyamızı
qurtarar sevindirər.
Hər ananın bağrına
Basdığı kiçik ürək
Qürur, güvən daşıyar.
Sevgi gülləri açar
Gülüşlə dolub daşar.
Uşaq deyib keçməyin,
Hər anı üçün deyin,
Şükür sənə Yaradan,
Cənnətimdən pay gəlib

Sevgi, güvən gətirib.
Adi səssiz ömrümə
Can verib, həyat verib.
Gəlin o əmanəti
Ən gözəl zinət kimi
Əl içində saxlayaq,
Göz nuru kimi baxaq.

## MÜƏLLİMİM

Min naz qəmzə ilə dərsə başlayır
Şagirdlər çiçəkdir günəşə baxır.
O, isə günəştək saf sözlərini
Toxuyur ilmətək ləçəklərinə.
Hər şagird ömrünə nazla yanaşır
Şagirdin üzündə maraq oyanır.
Səbrlə, təmkinlə
fikirlərini
dinləyir, sınayır,
süzür qəlbinə.
Müəllim ömrünü şamtək əridir
Nurunu yaymaqçün boş siniflərə.
Bir şagird gülüşü ömrünə bədəl,
Bir şagird sevgisi
Ona bəzək, zər.

***

Min dərədən su gətirib
Çiçəkləri gül edir.
Çöhrəsində sakit gülüş
Gözlərini məst edir.
Öyrətməkdir tək amalı
Köklərinə bağlanıb.
Cığır açır saf sözlərdən
Sabahlara boylanıb.

***

Rəqəmləri dost edir bir-bir şagirdləriylə,
Sevgisini toplayıb paylayır hər birinə.
Bu sevginin cəmini bəzən yoxlamaq üçün
Yerdəyişmə eyləyir şagird əməlləriylə.
Hərdən şagird azalır,
hərdən şagird çoxalır.
Bir müəllim sevgisi toplayıb şagirdləri
Cəm edir saf qəlbinə.

# ÖMÜRLÜK
# SEVDAM VAR
# KİÇİK QƏLBİMDƏ

# DÜŞÜNCƏMDƏSƏN

Səni düşünürəm, səni gizlicə
Qəlbimin məhrəmi sayıram səni.
Ruhumu qızdırır nurun sakitcə,
Ağlım haralara aparır məni.

Bir bilsən səni mən necə sevirəm,
Qəlbim də, ağlım da acizdir deyim.
Sadəcə dilimin əzbərində var,
Mən səni sevirəm deyib kiriyim.

Səni anladıqca heyran qalıram,
Səni yaşadıqca mən sən oluram.
Elə bilirəm ki, sənsiz solaram,
Səninlə yaşayıb, sənlə ölərəm.

Ağlım-fikrim məni sənə aparır,
Ruhum, qəlbim məni ərşə çıxarır.
Qanadsız mələyəm səndən ötəri,
Sənsiz ruhum dəli fəryad qoparır.

## SEVDAM

Səni axtarıram, səni duyuram.
Könlümün ən dərin guşələrində.
Səni səsləyirəm, səni gəzirəm
Qəlbimin duyğulu sahillərində.

Sahilə yan alan gəmim batmasın,
Fikirdən saçlarım heç ağarmasın,
Gözlərim həsrətdən yolda qalmasın,
Sevgili simanın nuru içində.

Sən mənə hər şeydən daha əzizsən,
Qəlbimdə tutuşan ən ali hissən,
Həsrətli yollara lalələr səpsəm,
Ömürlük sevdam var kiçik qəlbimdə.



## GİLEY

Səni axtarıram bəzən gileyli,
Sənsə uzaqdasan, sən də gileyli,
Nağıllar axtardım sirli-sehirli,
Sən ağatlı oğlan, mən naçar leyli.

Sevginin vüsalı həsrətlə doldu,
Baxışın, yerişin qəlbimdə qaldı,
Gözlərim hər zaman sevgidən yana
Səni hey axtardı, hey nişan aldı.

Könlümün əbədi sakinisən sən,
Ömrümün solmayan çiçəyisən sən.
Gözlərim yollarda intizar çəksə,
Bil ki, o yolların göz incisisən.



## EŞQİNƏ SARI

Səni düşünürəm bir axşamçağı
Ey mənim könlümün sirli qonağı.
Üfüqü yarmısan bulud üstündən,
Hay verib gəlirsən könlümə sarı.

Su səpdim yollara heç toz olmasın,
Toz olsa udaram yollar dolmasın.
Üzülmə dünyadan qəlbin solmasın
Baxışın gətirər könlə baharı,
Ruhum uçub gələr eşqinə sarı.

## SƏNİ İSTƏDİM

Bir zaman sən mənə böyük söz verdin,
Göydəki ulduzlar sənindir dedin.
Mən səndən ulduz yox,
      Səni istədim...
Bilmədin bir ulduz min dünya demək,
Sayını bilməyən dünyanı neynim,
O qədər dünyanı çətindir sevmək.

## GECƏ

Gecələr yuxuma gəl,
səninlə sənsizləyim,
Sənsiz olan yuxumu
səssizliklə bəzəyim.
Sənsizlik səssizlik olsun,
axsın içimə dolsun,
Yuxum sevgi dili olsun,
yuxularım çin olsun.

Duyum yaşayım gecəni doya-doya,
sevə-sevə,
Bir də harda tapım səni
sənsiz, səssiz qəlbimdə.
Sənin qoxun sezilsin,
sənin səsin duyulsun,
Sevgimi sənə verim,
qalmasın dərdim, qəmim.

# YOLLAR

Qaranlıq gecədən üzü sabaha
Bir yol var gah uzun, gah qısa olar,
Yollar həm dolanbac, həm yoxuş olar.
Yollar ayrıcında görüşərik biz,
Sevgidən pıçıldar könüllərimiz.

Sən mənə keçmişdən söhbət açarsan,
Mənsə gələcəyə doğru qaçaram.
Bu yollar axırda ayırar bizi,
Sən mənimçün keçmiş olmusan indi.

Sabahlara yollar aparıb məni,
Çox uzaq düşmüşük bir-birimizdən,
Dönmək istəsək də dönə bilmərik,
Bir də tapışsaq da artıq sevmərik.

# ƏBƏDİ QONAQ

Əbədi qonaqsan sən bu könlümdə
Səni əbədiyyən seçib sevmişəm,
Gözündən qəlbimə açdın bir pərdə,
Xoşbəxtlik mehini yetir demişəm.

Yaradan pay verib səni ömrümə,
Qoruyacam sirli əmanət kimi,
Ömrümdə səninlə açdığım səhifə
Yazılıb bitəcək xoş kitab kimi.

Dünyanı çox gəzib dolaşsaq da biz,
Bəllidir sonuncu tək mənzilimiz,
Sevgimiz yaşayıb əbədi olsun,
Bizdən mələklərə əmanət qalsın.



## UŞAQ PAYI

Neyləyim, mən sənin uşaqlığınam,
Gənclik illərinə uşaq payınam,
Bəlkə çatmadığın bir muradınam,
Bəlkə yaşanmamış gizli arzunam.

Titrəyib əsirsən üstümə hər an,
Gözlərin gözümə dikilib qalır.
Sən mənim qəlbimin sirli qonağı,
Məni hər dəqiqə sənə bağlayır.

Bilirəm bir dərdin ağuşundasan,
Əbədi mənimlə xoşbəxt yaşasan,
Bu gizli sevgini göyə uçursan,
Əbədi xoşbəxtlik savaşındasan.

## NİGARAN

Nigaranam, səndən yaman, nigaran,
Gah səsin artırır qəlbin qəmini,
Gah sözün beynimdə fikrə yol açır.
Səsin də, Sözün də könül həmdəmim,
Fikirlər ruhumu soyudub qaçır.
Ruhumu isidir soyuq nəfəsin,
Ömrümə təpərdir adi bir səsin.

# TALE YÜKÜ

Sən mənim ən ağır tale yükümsən
Çəkə bilməsəm də çəkəcəm səni.
Bəzən gileyimi hiss eləsən də
Gözlərin deyəcək sənə sirrini.

Bu qəlbdə gör neçə dərd var, ay Allah,
Ürək parçalansa qan çıxmayacaq.
Ümiddən saralan gözümün kökü
Heç vaxt gülməyəcək, şadlanmayacaq.

Heç xoşum gəlməyir yalan vədlərdən
Yalan ürəyimdə qara ləkədir.
Yalan etirafı duysan yalandan
Həqiqət dinməyən səsdir, heç nədir.

Mən sənin hər zaman başına döndüm,
Özümə yanmadım, mənə sənə yandım.
Nə bilim sevgini sən belə dandın,
Yalan etirafı sən doğru sandın.

İllər tez keçəcək yaşlanacaqsan,
Bu ağılla hələ çox allanacaqsan.
Mənsə güvənimi tamam itirdim,
Sən bunu heç zaman duymayacaqsan.

# MƏN SƏNİN QƏLBİNİN İÇİNDƏYMİŞƏM

Oğrun-oğrun sənə baxıb gülmüşəm,
Sənsə həmən bu gülüşü sezmisən.
İndi soruşursan hardan gəlmisən,
Mən sənin qəlbinin içindəymişəm.

Gözlərim gözünün sirli qonağı,
Baxışım çöhrənin olar çırağı.
Yamanca çəkirsən sən bu sınağı,
Mən sənin qəlbinin içindəymişəm.

Sözlərim qəlbinə yol tapıb dolar,
Bu gizli sevgimiz aşikar olar.
Bəllidir, sevgilər əbədi qalar,
Mən sənin qəlbinin içindəymişəm.

Sən o yandan, mən bu yandan baxışsaq,
Gizli-gizli, oğrun-oğrun danışsaq,
Gözünün içindən qəlbinə axsaq,
Mən sənin qəlbinin içindəymişəm.

Beləcə, bu sevgi qoy gizli qalsın,
Sənə də, mənə də yadigar olsun.
Qoymaram başqası qəlbinə girsin,
Mən sənin qəlbinin içindəymişəm.

## DOĞMALIQ

Gözlərin hələ də sevgidən yana,
Baxıb birdən-birə həsrətdən dona.
Sən mənə demişdin çıxma yoluma,
Dağ dağa rast gələr, insan insana.

Hələ də doğmadır sənə bu yollar,
Sən getdiyin yerdə məni görürsən.
Baxışlar yolunu azdırmasa da
Yolumun üstündə gəlib bitirsən.

Bu sevgi nə səni buraxacaqdır,
Nə məni rahatca yaşadacaqdır.
Gözümüz, könlümüz sevgidən yana
Həsrətlə bir-birin axtaracaqdır.



# DƏYƏRLİ

Dəyərlisən mənim üçün,
          dəyərli...
Bu söz dilininmi, yoxsa qəlbinin?
Sevgidən danışmaq sənin peşəndir
Göstər mənə ona layiq əməli.

Sözün də gərək ki, ağası olur,
Hər sözü söyləmək dilə ar olur.
Əməlsiz boş sözün kəsəri olmaz,
Sözdə əməl yoxsa, dürüst yaşanmaz.

Gecənin eybini qaranlıq örtər,
Ay, ulduz uzaqdan baxıb sayrışar.
Gecə qaranlığı gizli pay verər,
Eybini gizlədib örtən barışar.

# GÖZLƏRİM YOL ÇƏKİR

Gözlərim yol çəkir
ürəyim hicran,
Vüsal gözlərini
nə zaman verər?
Könlümə rahatlıq,
hüzur gətirər.

Gözlərim yol çəkir,
yollar uzanıb,
Gedib yollarına
nə vaxt bağlanar?
Həsrətli qoxuna
tez qovuşdurar.

Gözlərim yol çəkir
hey sənə sarı
Bir xeyli sözüm var
gətirsə bari.

# NEY

Səsin sehrinə düşdüm.
Nə gözəl havalanır
İncə, nazik dolu ney.
Ney özümü dillənir?
Yoxsa ruhunu verib
Onu hey səsləndirir.

Qəribədir elə bil,
Qəlbini oxuyur o,
Bir bulaqdır hər zaman
Daim axır dupduru.

Sevgili könüllərin
Sevgisinin səsidir,
Rəngidir, ahəngidir.
Sehrə salır insanı
Bəs sevgilim, de hanı?

Bilirəm həsrətidir,
Yanıq-yanıq səslənir.
Ruhunun harayından
Elə bil haray verir.

Gözlərimi yumuram,
Başqa aləm var orda...
Neysə elə bil görür
Bunları orada da...

# SƏNİN XOŞ XƏBƏRİN MƏNİM BƏSİMDİR



# ANAM

Anam, uzaqdasan, sərin meh əsir,
Duanı dinləmək istəyirəm mən.
Sən mənə hər zaman sevgi vermisən,
Mən səni duymuşam, vurğun olmuşam,
Sevginlə, eşqinlə doyub dolmuşam.

Sənin gözəl qoxun, sənin gözlərin,
Sənin mərhəmətli adil sözlərin,
Sənin qərib dünyan, qərib hisslərin,
Sonsuz bir ümmana aparır məni,
Sən orda limansan, mən də bir gəmi.

Sonsuz bir qəriblik tutur qəlbimi,
Ananın qızına vəfası eşqi.
Bu yollar pay verir mənə ətrini,
Sənin xoş xəbərin mənim bəsimdir.



## QARDAŞ

Bir bacı qardaşa nə arzulayar,
Sevgisi dağıdır, vüqarıdır o.
Bir yarpaq ağaca necə bağlanar,
Ağacın qədrini yarpağından sor.

Bacının könlünü dələn bir dua
Yetişər qardaşa xoş bir meh kimi.
Narahat könlümdən süzülən səda
Dolar gözlərimdə gizli yaş kimi.

Sən dərd ortağımsan, sən qəm sirdaşım,
Bəzən baxışlarla dərdləşmişik biz.
Rəbbimdən pay gələn tək bir qardaşım,
Duamı pay verim mən sənə səssiz.

Bir sevgi dolaşsın hey içimizdə,
Bu sevgi doldursun qəlb gözümüzü.
Yaşadaq sevgini öz duamızda,
Bəzəsin duamız qoy ömrümüzü.

# YARADAN NƏ GÖZƏL YARADIB SƏNİ

Arzular yazıram doğum gününə,
Xoşbəxtlik, xoşbəxtlik vursun üzünə.
İlk dəfə qələmi alanda ələ
Gözlərimin yaşı baxmır sözümə.

Doluram, içimdən arzular keçir,
Daha çox arzunu dilə gətirim.
Neyləyim, könlümdən dilimdən keçir
Kaş, gücüm yetəydi, ömrə gətirim.

Səninçün ağlıma min arzu gəlir
Gücüm yox, arzular bitib tükənmir.
Əllərimi açıb Ulu Dərgaha
Könlümdən gələni dilə gətirim.

Yaradan nə gözəl yaradıb səni
Məsum, saf incisən, qönçəli gülsən.
Yaradan qorusun hər zaman səni
Sən bizə verilən bir əmanətsən.

# QƏRİBƏ HİSSLƏRİN AĞUŞUNDAYAM

“Ey fələk” deyirsən
gecə yarıdır,
İçini çəkirsən
qəlbin göynəyir.
Dönüb seyr edirsən keçən bir ömrü,
Göz yaşın dərdini heç dindirməyir.

Anasan! Bu adı qorudun hər vaxt,
Sən ömrün verdiyi taleyinə bax?
Saçları ağartdın balalar üçün,
Ömrünü yaşadın düz amal üçün.

Anasan! Yığdın sən balalarını,
Dərdilə, qəmilə ocaq başına.
Heç əskik etmədin dualarını,
Sipərsən dırnağa dəyən daşına.

Sevindin, şadlandın güləndə onlar,
Qəmlənib bezikdin kədərli görsən.
Bir övlad həm sənin qürurun olar,
Həm də yozulmayan bir yuxun olar.

Dönüb bu ömrünə bir də yenə bax,
Beyhudə keçməmiş, bil, ömrün sənin.
Duanı əskiltmə dilindən heç vaxt,
Ən gözəl sehridir nurlu çöhrənin.

Qəribə hislərin ağuşundayam,
Ağlımamı sorsam, yoxsa könlümə?
Mən pislə yaxşının savaşındayam
Ağlım da, könlüm də baxmır sözümə.

Zamana buraxsam hər ötən anı,
Zamanla yarışsam, zamana sarı.
Yel kimi cəld çapan zamanın atı,
Tozuna qərq edər qışı, baharı.

# HƏR GÜNÜMÜZ
# BİR HEKAYƏ



# İKİ MƏLƏK

Səsli-küylü dəhlizlərdən keçərək sinfə daxil olan müəllim şagirdlərinin sevinc dolu gözlərindəki işartıları görüb özü də sevincək oldu. Nə qədər bu sinfə yorğun gəlsə də, həmin sinfin abu-havası onu ruhlandırır, işləmək həvəsini artırırdı. Maraqlısı da bu idi ki, eyni dərsi eyni yaş qruplarında fərqli təqdim edirdi. Soruşanda isə deyirdi ki, hər sinfin öz enerjisi və abu-havası var. Hər şey qarşındakının əhvalından asılıdır. Bir az otu-rub fikirləşəndə görürsən ki, adi həyatda da belədir. Sənin davranışların, münasibətlərin qarşıdakı şəxsin səninlə davranışından ası-lıdır. Bəzən bir xoş baxış, bir sevincli gülüş səni göylərə uçuranda, fırtınalı qəlbin səssiz harayında gizlənən inilti səni yerin ən dərin qatlarında boğmağa qadirdir. Bu səs-küyün ən möhtəşəmi elə sinifdəki idi. Bir addım irə-li atılanda elə bil səhnəyə ulduz parlayırdı. Şagirdlərinin sevincindən öz sevincinə pay biçən müəllim salamlaşıb masasına yaxın-laşdı. Gözaltı uşaqları süzdü ki, görsün hamı yerindədi, ya yox. Bir baxış bəs edərdi ki, o kimin dərsdə olub-olmadığını sezsin.

Eynəyinin altından gözucu baxmaqla qarşı partada oturan qarabuğdayı qızın fikirli dal-

ğın baxışları onu silkələdi.

Dərsin gedişatını bu qara qızın baxışları müəyyənləşdirmişdi. Jurnalda qeydlərini bitirən müəllim artıq dərsə başlamışdı. Bütün şagirdlərin fikri müəllimdə, müəllimin fikri isə həmin fikirli qara qızda idi. Onun azacıq da olsa gülüşünə nail olmalıydı. Dil dərsi olduğundan məharətlə istifadə olunan dialoqlar, sözlər, oyunlar uşaqların fikirlərini dağıdırdı, həmçinin o gözəl qonurgözlü qızın. Onlar özlərini ayrı aləmdə hiss edirdilər. Oyunlar qurulur, uşaqlar oynadıqlarını hiss edir, müəllim isə dil bacarıqlarının inkişafına nail olurdu.

Dərs sona yaxınlaşırdı. Həmin qarabuğdayı qız özündən asılı olmayaraq qaçıb müəllimi qucaqladı və ona bir məktub uzatdı. Bu, müəllimin öyrəşdiyi davranış idi. Belə məktubların adını “Sevgi məktubları” qoymuşdu. Yenə, adəti üzrə məktubu açdı və oxumaq istədi. Qız qara gilas gözlərini müəllimə zilləmişdi:

“Dəyərli müəllimə, biz sizi sevirik. Siz bizə xarici dil öyrətdiniz, bizə təhsil verdiyiniz üçün biz sizi sevirik . Mənim anam da sizinlə yaşıddır. O da sizin kimi mələkdir”.

Görəsən, bu balaca, səkkiz yaşlı qız, yaşıdlarından cansız, amma məsuliyyəti və çalışqanlığl ilə seçilən balanı belə yazmağa nə

vadar etmişdi? Müəllim özünü cəmləşdirib:

-Sabah sənin ananı görməyə gələcəm, -dedi.

-Doğrudan? – Sevincindən yerə, göyə sığmayan qız dilləndi. – Evimiz böyük supermarketin arxasında yerləşir, müəllimə, -deyərək bərk-bərk müəllimə sarıldı. Kövrək müəllimin özü də anlamadan qəhərləndi, iki damcı göz yaşı qızın köynəyinə düşdü. Müəllim tez özünü ələ alıb sabah görüş yeri təyin edərək sinfi tərk etdi.

Sabah üçün narahat idi, çünki bir şagirdinin evinə xəbərsiz gedəcəkdi. Bu xoş və ya səmimiyyətsiz da qarşılana bilərdi.

Səhər açıldı. Saat on-on bir radələrində müəllim hədiyyə üçün seçdiyi kitabı da əlinə götürərək yola düzəldi. Yolüstü vədələşdikləri yerdə şagirdi ilə görüşdü. Qızın sevinci yerə, göyə sığmırdı. Onun ən çox sevdiyi müəllimi onlara qonaq gedirdi.

-Müəllimə, sizə keks hazırlamışam.

-Afərin, sənin belə məharətin də varmış?

-Bəli, evdə çox işi mən görürəm.

-Nə yaxşı, anan bəxtəvərdi ki...

-Aaa?! Anam da həmişə belə deyir.

-Bəli. Hər bir ana sənin kimi qızının olmasını istəyər.

Belə mehribancasına deyə-gülə bir də baxdılar ki, qapıdadılar. Qız qapını açdı, ev sə-

liqəli idi. Müəllimin gözü ananı gəzirdi, ancaq ana gözə dəymirdi. Bu qarşılanma bir az da olsa müəllimin qəlbində təşviş yaratdı. Bəlkə də bir məktubun ardınca bura qədər gəlməyə dəyməzdi. Görəsən, yersiz, yoxsa gülünc halına necə haqq qazandıracaqdı? Bu suallarla beynini yorarkən bir tərəfdən də çəkmələrini çıxarmağa çalışırdı. Həyəcan basdığından əli ayağına dolaşan müəllimə ayaqqabılarından canını qurtardı və həyəcandan dili, dodağı qarışan qonurgözlü qız onu içəri dəvət etdi.

İçəriyə keçmişdi ki, müəllim donub qaldı. Ananın arıq, rəngsiz siması onlara gülümsəyirdi. Əllərinin arıqlığı onun taqətsiz qaldığını deyirdi. Artıq müəllim hər şeyi anlamışdı. Üzündəki donuq ifadə yanağından süzülən yaşlarla isinmişdi. Həqiqətən qadın övladının gözündə mələkləşirdi.

Bu xəstəlik onun gözündə bəlkə də ən amansız, ən pis, ən bərbad xəstəlik idi, çünki bir müddət əvvəl bacısını amansız xəstəliyin pəncəsindən qurtara bilməmişdi. Eyni hisləri yenidən yaşamaq ona ağır olmalıydı.

Ana və müəllim üzlərinə təbəssümü qondurmağa çalışaraq baxışırdılar. Onlar vəziyyətin nə yerdə olduğunu çox gözəl anlayırdılar. Bəli, bu hal çox sürmədi. Demək ki, qız haqlı idi, onlar bir-birini anladıqları üçün hal diliylə bölüşmüşdülər hislərini.

Qız isə mətbəxdə mahnı oxuya-oxuya, sevincək halda onlara çay hazırlayırdı.

Qız çayla otağa daxil olanda iki mələyin qucaqlaşıb donuq vəziyyətdə sakit, səssiz oturduğunu gördü. Elə sevindi ki….

O, artıq qəlbinin ən gözəl yerində sevgiylə ucaltdığı iki mələyi görüşdürmüşdü...



# VAQONDA MÖCÜZƏ

Səhəri birtəhər haqlamışdı. Gəncliyinin ən gözəl arzusunu yaşadığına özü də inana bilmirdi. Bu diyarda gördüyü hər bir insan, hər bir küçə, eşitdiyi hər kəlmə ona daha şirin, daha sevimli gəlirdi. Hətta illərlə bu diyarı arzuladığı və həsrətini çəkdiyi üçün özünə bir afərin də deyirdi. "Afərin" ona görə ki, sevgisində heç yanılmamışdı. Bu diyarın da ona salamat və salam yaydığını duyurdu.

Artıq yola düşmə vaxtı idi. Biletini, sənədlərini yoxladıqdan sonra dəmiryol vağzalına yollandı. Özü özünü əmin etmişdi ki, getdiyi diyar da onu gözləyirdi, ona deyəcəyi sözləri vardı. Bir daha tələsərək platformaya tərəf qalxdı. İndi ürəyi daha tez-tez vururdu, çünki kitablarda tanış olduğu, qədim türk diyarı sayılan Səmərqənd ona "xoşgəldin" demişdi. Uşaqlığında dinlədiyi nağıllar aləminə bir səyahət idi bu.

Həyəcanlı-həyəcanlı yaxınlaşdığı dəmir yolçusu pencəyini geydiyinə görə seçilən ilk vağzal işçisinə bileti uzadaraq hansı tərəfə gedəcəyini soruşdu. Düz gəldiyinə əmin olandan sonra çamadanını arxasınca çəkərək yeyin addımlarla vaqona daxil oldu. Əksər insanların turist olduğunu görüncə öz-özünə

dedi: “Deməli, bu istidə, bu səyahəti edən tək mən deyilmişəm!”

Beləcə, asta-asta oturacağına yaxınlaşdı. Onunla üzbəüz bir ahıl oturmuşdu. Yaşlı kişini görcək duruxdu və təəccüb dolu baxışlarla onu başdan ayağa süzdü. Görəsən, insan insana bu qədərmi bənzəyər? Bəlkə də özünü yalniz hiss etməsin deyə bu yolculuqda bu da bir gərdiş idi. Eynən babasına bənzəyən biriylə üç saatdan çox yol getməliydi.

Eləcə özünü yığışdırmışdı ki, nəsə soruşsun, bu qoca kişi müdrik baxışlarıyla onun üzunə mülayım şəkildə gülümsəyərək titrək əllərini dodaqlarına apararaq başını yellədi. Həmin an bu qocaman insanın dil problemi olduğunu başa düşdü. Bildi ki, ünsiyyət ya özbək, ya rus, ya da ingilis dilində davam edə bilər. Bu haldan hər ikisi məmnun görünürdü. Ən maraqlısı isə daha sonra baş verdi. Təbii ki, insanlar bir-birini adlarıyla təqdim edirdilər. Növbəti təəccübü bu insanın adını eşidib yaşadı. Mister Abdul. Bu qocaman yaşına baxmayaraq gümrah və şux görünən insanın ismi də babasının eynisi idi. Təəccübünü gizlətmədi. Sevinərək dedi:

-Mənim babamın da adı Abdulla olub. Onu da Abdul, Əbdül deyə çağırırdılar. Mən heç nəyin təsadüf olduğuna inanan insan deyiləm, amma bu qədərini də gözləmirdim.

Çox səmimi dialoqlar başlandı.

Mister Abdul vaxtilə pilot olduğundan bəhs etdi. Dünyanın dörd bir bucağını gəzdiyini anlatdı. İndi isə Mərakeşdən Səmərqəndə böyük alim Əl-Buxarinin ziyarətinə getdiyini söylədi.

Deməx ki, Səmərqənd sevdalı iki insanın görüşü idi bu.

Yolboyu maraqlı söhbətlər bir-birni əvəz edirdi. Mister Abdul öz Mərakeşindən danışır, dünyada gördüyü, yaşadığı təcrübələrini bölüşürdü. O isə bəzən nəsə soruşur, sadə suallar verir, daha çox dinləyirdi. Əslində o, bu qədər təcrübəsi olan insanı heyrətə gətirəcək bir söhbət də düşünmürdü, sadəcə dinləmək daha maraqlı idi.

Artıq qatarın Səmərqəndə çatmağına az qalmışdı. Pəncərədən boylananda yolboyu çinarları seyr edirdi və beləcə düşünürdü. Görəsən, çinarlarıdamı Səmərqəndə görə sevmişdi? Axı onun ən sevdiyi ağac çinar idi. Hətta, vaxtilə şer də yazmışdı bu gözəl ağaca:

*Külək qoca çinarı ora-bura sovurur,*
*Yarpaqları gül açıb tumurcuqlar böyüyür.*
*Sən, ey çovğuna, qara sinə gərən, ay çinar,*
*Sən yayın istisinə mehin verən, ay çinar,*
*Bu qədər çətinliyə dayanmaq çoxmu çətin?*

*Yoxsa sən öyrəşmisən -*
*Çətin ağır günlərin,*
*Sənə tohvə verdiyi,*
*Səbr ilə kökünə dayanıb dirənməyi.*

*Heyranam hər fəsildə*
*bir hala düşməyinə,*
*Qışın qar sazağından*
*sonra yazın gününə*
*Tumurcuqla boy atıb*
*Günəşə hay verməna....*

Çinarları şair baxışlarıyla süzürdü. Dünyada nələrin seviləcəyini təsdiqləyirdi ozü ozlüyündə. Bir də nə görsə yaxşıdı, ağacların üstündən leyləklər uçurdu. Ömründə ilk dəfə idi ki, leyləklərin uçuşuna şahidlik edirdi. Lap özünü min bir gecə nağıllarında hiss edirdi. Yaşıl çöllərin bir-birini əvəz etməsi, leyləklərin rəvan uçuşu, çinarların yarpaqlarının nəğməsi insanı özündən alıb aparırdı uzaqlara, xəyallar aləminə.

Bu səssizliyi Mister Abdulun qəfil sualı pozdu:

-Sizin diyarlar necədi?

Artıq qürurla qalib ölkənin vətəndaşı olduğunu dilə gətirmək vaxtı idi.

-Mən Azərbaycanlıyam!

Mister Abdul Azərbaycanın neft ölkəsi ol-

duğunu və xarici siyasətindən ağız dolusu danışdı. Özbəklərin də, Azərbaycanlıların da eyni kökdən olduğunu həm dedi, həm də başı ilə məmnunluqla təsdiqlədi.

-İndi bütün dünya bizi türk kimi, türksoylu kimi tanıyır. Bəli, biz türkük, eyni soydan, eyni kökdən olanlarıq. Ancaq Azərbaycanla daha yaxınıq. Onlarda da bəy, bay var, bizdə də. Öz-bəy, bəlkə də elə Az-bəy deməkdi. Nə bilim.

Görəsən, o, həqiqətən özbək idi, yoxsa bir mərakeşliydi? Onu bura gətirən kökünə bağlılıq idimi, yoxsa bu sevdanı nəyə bağlamaq olardı? Qarşısındakı gənc xəyallara dalmışdı. Həm inanmaq istəyirdi, həm də inana bilmirdi. Düşünürdü.

"Bəli, Azərbaycan və Özbəkistan bir-birinə qardaşcasına bağlı ölkələrdi. Bu bağlılıq təkcə millətlərin oxşarlığı, bənzərliyi, eyni kökdən olması ilə bağlıydımı? Bu iki ölkəni bir-birinə bağlayan çox şeylər vardı. Bunu Səmərqəndə düşəndə anlayacaqdılar. Bunu Mister Abdul da sezmişdi. Axı onun yaşı, təcrübəsi yol verirdi ki, insanları bir baxışdan anlasın. Qarşısındakı isə çox gənc idi. Çox oxusa da ölkələr gəzməmişdi. Bu, onun ilk səyahəti idi. Ona görə heç tərəddüd etmədən onunla mutləq Əl-Buxaranı birlikdə ziyarət etdiyini deyəndə qeyd şərtsiz razılaşacağını bilirdi.

Beləcə, bu iki səyyah artıq qərarlaşdırmışdılar ki, birlikdə Əl-Buxarani ziyarət edəcəklər. Mister Abdul bu qədər yolu necə gəldiyini düşünmədən isti və yorğunluğa baxmadan dərhal bir taksiylə anlaşmışdı ki, vağzaldan birbaşa ora gedəcəklər. Taksi sürücüsü isə orada restavrasiya işlərinin olduğunu "haki var" deyirdi. Ancaq onun deyinməyi Mister Abdulu yolundan döndərmədi.

-Biz ora getməliyik, mütləq.

Taksi sürücüsü təslim olmuşdu. Yolboyu hərarətə baxmayaraq onlar yol kənarında səliqə ilə əkilən reyhanları seyr edirdilər. Onların marağını gördükcə sürücü təmtəraqla Səmərqəndi reyhansız təsəvvür etmədiyini söyləyirdi. Axır ki, onlar Əl-Buxaranın üstündə idilər. Amma bir az buruq bir görüşmə idi bu. Bu müqəddəs yer tamamilə yenilənirdi. Köhnədənsə əsər-əlamət qalmamışdı. Görəsən, insanlar köhnəni yıxmağa niyə bu qədər maraqlı idilər? Axı Səmərqənd başdan ayağa tarix qoxurdu. Bu tarixi yeniləmək, keçmişə sədd çəkmək, bəzən də onu itirmək demək idi.

Dualar oxundu, nəzir-niyazlar verildi. Əl-Buxarinin ziyarəti tamamlananda Mister Abdulun gözündəki kədər və giləsinin dolub boşalmağı onu maraqla seyr etdiyi tikilinin dağılmış divarlarına bir də dönüb baxmağa

vadar etdi.

-Necəsiniz?

Bu sualınsa cavabı çox şey deyirdi. Mister Abdul qaşlarını çataraq bir az da qızğın ifadəylə təəssüfləndiyini bildirdi:

-Heç olmasa, qəbrinə toxunmazdılar. Axı bu bir tarixdi, onu yenilik xətrinə söküb dağıtmaq olmaz!

Yenə xəfif bir təbəssüm qondurdu dodaqlarına:

-Çox şükür, heç olmasa özümə verdiyim sözü tutdum və ziyarətimi tamamladım.

Sanki, hesabat verirdi özü özünə.

Bu duyğular o qədər saf, təmiz duyğular idi ki, dünyanın söz yükü qəlb yükünün arxasında qalmışdı.

O isə düşünürdü. Görəsən, zəfərlə şəhid qanlarının bahasına alınan torpaqlarda neçə belə müqəddəslərin ruhu tapdaq altında qalmışdı, neçə belə ziyarətgahlar viran olmuşdu.

Bu görüş çox mətləblərin üstünü açmışdı. O artıq tarix qoxan Səmərqəndini ruhuna ilmə-ilmə işləyirdi.

Gəzib gördüklərini nə vaxtsa qələmə almaq üçün...

# YADİGAR SIRQALAR

Məzahir yenə də balaca həyətində işləyirdi. Heç kəs onu nə vaxtsa işsiz, yəni, gəlib yatan vəziyyətini demək olar ki, xatırlamırdı. Həyatın min bir sınağından çıxmış bu kişi övladlarına da zəhməti sevdirməyə çalışır, bağyanı sahədə işlərkən oğlunu, qızını da yanında götürərdi. Ən gözəl keçirdiyi vaxtlardan biri övladlarıyla bir yerdə keçirdiyi anlar idi. Hər zaman övladlarının, xüsusən də qızlarının nazıyla oynayan Məzahir onlar üçün mahnı oxuyar, oyun oynayar, dərslərilə məşğul olar, hətta gecələri nağıl da uydurub danışardı.

Bu axşam da yorğun-arğın, bitkin gələn atanı qızlar əməlli-başlı yormuşdular. Böyük qızın şıltaqlıqları bitmir, yenə də deyirdi.

-Ata, Bakıya nə vaxt gedirsən?

-Bu ay da göndərəcəklər, ay qızım. Yenə könlünə nə düşüb?

-Ay ata, bu dəfə dəqiq alacaqsansa deyəcəm, yoxsa yox.

-Nə imiş görəsən, hər dəfə bir şey tapırsan.

-Mən tapmaqla deyil ki, sən yenə də gedib öz bildiyini alırsan .

-Bir az insaflı danış, ay bala, mən aldıqlarım sənə daha çox yaraşır. İnsan özünə yaraşanı geyinər. Səni də məndən çox sevən olmaz, bunu bil.

Qızının saçlarını oxşayan ata sakitcə "Qaragöz boy-boy" mahnısını dodağının altında zümzümə edirdi. Mətbəxdən gələn səs mahnını bölür.

-Ay Məzahir, bu balaca qız yenə saçlarını daramağa qoymadı. Sən allah, çağır onun saçlarını dara.

-Yaxşı, yaxşı, ay xanım. Gəl görüm bura, Laloçka. - deyə o balaca qızını səsləyir.

Adını Lalə qoysa da o həmişə ona "Laloçka" deyə müraciət edərdi. Qapqara gözləri olan Lalə atasının yanına gəlib dizinin üstündə oturur, böyük qıza göz-qaş edir ki, darağı gətirsin. Ata-bala başlayırlar söhbətə:

-Bu nədi əlində?

-Kuklamdı. Baax, nə qəşəngdi...

-Düzdü qəşəngdi, amma mənim Laloçkamdan yox, çünki onun saçları dolaşıb, gəl darayaq.

-Hə, ata, darayaq.

Ata-qız kuklanı darayırlar. Sonra ata bir kuklaya, bir də Laloçkaya baxıb deyir:

-Gəl sənin də saçlarını darayaq. Axı sən də qəşəng olmalısan. Sonra deyərlər ki, kuklası Laloçkadan qəşəngdi.

Laloçka razılaşır. Məzahir özündən əmin şəkildə ehmalca mahni zümzümə edərək qızının saçlarını darayır. Balaca qız sevincək

ona oxunan mahnının sədaları altında kuklasını oxşayır.

*Ay uzun saç, qara göz,*
*Ağıllı qızım mənim.*
*Gəl əlifba oxuyaq,*
*sən şagird ol, mən məllim.*

-EE yox, ata, mənəm məllim.

-Yaxşı, qızım. Hə, indi olar, çünki saçların məllim saçına oxşadı.

Anası mətbəxdən boylanıb səsləndi:

-Bəh, bəh, nə qəşəngdi mənim qızım.

Uşaqlarla oynayıb həm özlərini, həm də uşaqları yorduqdan sonra uşaqlar yatmağa yollanır. Qəribə sakitlik çökür evə. Məzahir danışmaq istəmir, kefi pozulmuş halda söykənib mütəkkəyə yerdən ayaqlarını uzadıb oturur. Dərin fikrə gedir. Gah dodağının altında zümzümə edir, gah da sakitcə bir nöqtəyə zillənib qalır.

-Yenə fikrə getdin, ay kişi? Nolub? - Xanım əlində çayları gətirirdi.

-Heç. Bu gün də maaşları vurmadılar, heç bilmirəm necə olacaq. O qədər ağır vəziyyətdə olan işçilər var ki, adam üzlərinə baxa bilmir. Yenə gələn həftə gedəcəm, görək bizə pul ayırırlar.

-Özgələrin dərdi səni birtəhər elədi, bir az

da özünü fikirləş. Mudir sən deyilsən ki, hər işə də səni göndərirlər. Vallah, sən olmayanda uşaqlara baxa bilmirəm. Mənim sözümə baxmıllar.

Xanım nə fikirləşdisə, qaşlarını çatdı, elə bil ərinin bayaqkı sözləri indi ona çatırdı.

-Bəs bu gün maaş olmadı, ay Məzahir, sabah neyniyəcəm? Dayım qızları deyib ki, sizə gələcəyik. Mən də onların qabağına sup bişirib qoymaycam haa?

Məzahir gözlərini yerə dikmiş əli ilə xalçanın üstündəki qırıntılı sapları dartmağa başlamşdıı artıq, bilirdi ki, verəcək cavab tapmır. Bu onun çarəsiz, köməksiz anlarında başını qatacağı ən sadə və primitiv məşğuliyyət idi. Bundan ötrü bəzən danlanırdı da ki, xalça təmizdi, nə axtarırsan o xalçada. Amma neynəməli? Sakit və rəvan xasiyyətdə olan bu insan başqalarına əsəbini tökməkdənsə, acığını xalçadan çıxırdı.

-Əslində bir şey demək istəyirəm. - deyə xanımı dilləndi. – Atamgilin böyük qıza aldığı qızıl sırqalar var, onsuz da qırılıb, bəlkə onu sataq. Baxma da qızıldı, əməlli pul edər, sabah qonaqları da yola salaram, bir müddət də dolanarıq, nə deyirsən?

-Nə deyim, vallah, axı yadigardı. Bir də ki, onu sənin atan alıb, özü də Moskvadan.

-Düzdü, amma neyniyək, heç gəlməyən

qonaqlardı, bizi də yaxşı adam kimi tanıyırlar, deməzlər ki, getdik üzümüzə yaxşı baxmadılar?

-Vallah, məsləhət sənindi, amma səhər icazəsini qızından al, sonra. Qızızmız nə desə, onu da edərik.

Bunu da belə yoluna qoyan ev sahibləri çaylarını içib gedib yatırlar.

Səhər tezdən masa başında hamı yığılanda ana başlayır söhbətə:

-Bu gün bizə qonaq gələcək. Heç kim oyuncaqlarını, kitablarını ortalığa tökməsin. Qızlar həyəti sahmana salarsız.

-Nə də olsa, bizə iş var. Qonaq sizi görməyə gəlir. Evə baxmayacaq ki?

-Bəsdi dəə, ay qızım, nə deyirəm, onu da edin. Bir də ki, sənə işimiz düşüb. Bu qonaqların gəlməyi səndən asılıdı.

- Ay amaaan , yeməkləri də mən bişirəcəm? Hər halda özünüzü biabır eləmək istəməzsiz.

Bu zaman ata övladların başını öpərək masadan qalxdı və oğlunu da özüylə apardı həyətə.

Ana qırtdana-qırtdana sözə başladı:

-Qızım, bilirsən ki, atan nə qədər vaxtdı maaş almır və bu gün qonaqlar gəlir. Ata çıxışdıra bilmədi, ona gorə də mən səndən xəbərsiz ona dedim ki, sənin baba alan qızıl sırqalarını sataq, onsuz da qırılıb, taxmırsan,

ata da çox fikir etməmiş olar. Bilmirəm, düz elədim, ya səhv, amma düşündüm ki, sən də atanın fikir çəkməsini istəməzsən. O sırqalar yadigardi, bilirik, amma ata sənə vaxt gələr, daha gözəlini alar.

-Ana, sən gördüyüm ən qayğıkeş qadınsan, niyə mənim atam onun-bunun yanında utanmalıdı. Əgər belə qərara almısızsa, mən də razı, amma məni çox işlətməzsən. – deyib gülüb qaçdı həyətə.

Ana gedib məxmər boğçada saxladığı yadigar sırqaları götürüb gətirib həyətdə özü üçün bir məşğuliyyət tapan ərinə verdi. Sırqaları alarkən Məzahir nə hiss etdiyini deyə bilmədi, çünki bazara getmək vaxtı idi, yoxsa qonaqlar gələnə çox şey çatmazdı.

Qonaqlar gəldi, masalar açıldı, hamı şən, mehriban söhbətlər etdi. Evin abu-havası tamam dəyişdi, çünki ev yiyələrinin üzü gülürdü. Atasını, anasını şən görən uşaqlar da mehribancasına oynayırdılar. Bu gün onların yaddaşında xoş anlarla yadda qalacaqdı.

Axşam düşdü, qonaqlar da evlərinə getdilər. Gedərkən çox minnətdarlıq etdilər.

Ailə bir araya yığıldı. Atanın ağzından bu kəlmələr sükutu pozdu:

-Əllərin dərd görməsin, ay ceyran.

Böyük qız bu kəlimələri gözləyirmiş kimi yerindən sıçrayıb atasının boynuna sarıldı.

Bu sarılma gündəlik sarılma sayılmırdı. Bilinmirdi kim kimə minnətdarliq edirdi. Ata qızına onları çətin vəziyyətdə çaş-baş qoymadığı üçün, qız isə atasına və anasına gözəl həyat dərsi üçün sarılmlışdı. O, ailəsindən insanın hisslərinin, qürurunun, izzətinin ən gözəl zinət olduğunu, başqalarına qoyulan hörmətin əslində özünə qoyulan hörmət olduğunu öyrənmişdi. Bu duyğunu, bu düşüncəni o heç yerdə, heç bir pedaqoqdan ala bilməyəcəkdi. Bunun üçün o, atasına minnətdar olmalıydı.

# TISBAĞA TƏRBİYƏÇİSİ

Yağışın damlaları küləklə əlbir olub pəncərəsini döyəcləyəndə saat iki olardı, ya da yox. Gözlərini qıyaraq öz-özünə ürəyində deyindi:

"Axı bu külək nə istəyir yağışdan? Qoysa bir narın-narın yağsa. Mən də yağışın səsindən yenə yuxuya getsəm..."

Dünən həkimin dediklərindən sonra evə gəlib özünü eləcə çarpayıya atan Nazlı heç yeməyə də qalxmamışdı, bütün gecəni, elə səhəri də daş kimi yatmışdı. İndi onu zorla durğuzmağa çalışan küləklə əməlli-başlı dalaşmaq istəyirdi. Nəysəə... həyat davam edirdi.

Birtəhər yol tapmalı idi – iyirmi burinci əsrdi. Hər şeyin çarəsi var. Bu da belə davam etməz, düzələr. Qəfil mətbəxdən gələn qabların çak-çuk səsi onu diksindirdi. Kim vardı evdə? Rəhim işdə olmalıydı axı??

Bir az qorxu, bir az da təlaşla güpurlu xələtini çiyninə salıb yataq otağından çıxmaq istəyirdi ki, Rəhim gəldi durdu qarşısında. Bir-birinə sataşan gözlər dünəndə qalmışdı. Həkimin otağının kandarında.... Nazlının dünənki baxışları onu tərk eləməmişdi. Çünki Nazlı da Rəhimin baxışlarında dünənki ifadənin donduğunu gördü.

Nazlı yenə dünənə qayıtdı xəyalında, Rəhimə heç nə demədən mətbəxə keçdi. Saçlarını oxşamaq istəyən Rəhimin əli havada qaldı. O da arvadının qızılı saçlarına baxa-baxa mətbəxə keçdi.

-Niyə evdəsən? Niyə getmədin işə? Məni güdürsən?

-O nə deməkdi? Mən sənə görə narahatam.

-Narahat olma, hər şeyin bir yolu-yöntəmi var. – Soyuq baxışlarıyla süzdü Rəhimi.

-Necə yəni, anlamadım?

-Burda anlamayacaq nə var ki? Sən məni sevirsən, mən də səni. İnsan sevdiyi üçün hər şeyindən keçər. Mən istəyirəm ki, sən həyatda hər şeyin ən yaxşısına layiq olasan. Həyatda hər şeyin əlasını dadasan, yeməyin, içməyin, xöşbəxtliyin...

-Dadıram daa, səni qucaqlayanda, bədənini bədənimə saranda dünyanın ən xöşbəxti oluram.

-Yox, biz belə deməmişdik axı.

-Nə demişdik bəs?

-Ən azı üç uşağımız olacaqdı.

-Mənimlə uşağa görə evlənmisən? Şəxsən mən uşağa görə evlənməmişəm.

-Eeee, Rəhim, hər şey tam olmalıdır ki, biz xöşbəxt olaq.

-Nolub ki, bizə, evimiz, eşiyimiz, işimiz, gücümüz, bir də sən, əsas da sən. - gözləri

bir anlıq sataşdı Nazlının gözlərinə. Nazlı da dözə bilmədi. Sevgilisinin boynuna sarılıb hönkür-hönkür ağladı. Bu hönkürtü dünəndən yığılıb boğazında düyünlənib qalan nisgilin acı fəryadı idi.

-Mən istəyirəm ki, sən atalıq hissini dadasan. Sən atalığı yaşayasan.

-Qurtar görək! Buna görədi bu təntənə? Boş-boş danışma. Ağlına bir bu gəlib gecədən?

Evdən çıxarkən qəzəbli halda qapını çırpdı. Görəsən, onu bu qədər özündən çıxaran hadisə onu hara sürükləyəcəkdi? Artıq uzun müddət olardı ki, ailə qurmuşdular. Onlar bu dünyanı gəzməyi öyrənməyi ömür boyu bir-birini tərbiyə edəcəklərini söz vermişdilər. Bu mübahisə isə onu özündən çıxarmışdı. Rəhim evi tərk edəndə Nazlı da pəncərədən Xəzərə baxırdı. Xəzərdən gələn dalğalar onu sakitləşdirirdi. Öz-özünə düşünürdü ki, mən dəniz kimi olmalıyam. Nə qədər özümdən çıxsam da sahilə rəvan dalğalar gəlib çatmalıdır. Mən dənizi ona görə sevirəm ki, dalğalar sahilə sakit gəlib çatanda onun daxilində olan böhranları heç kim görmür. Mən də Rəhimə çox haqsız davrandım. Görəsən, hara getdi?! Axı onu bu qədər əsəbləşdirməməliydim...

Rəhim isə yeriyirdi yolda uzun uzadı. Bir az gəzişdikdən sonra sakitcə düşündü və

öz-özünə dedi:

-Niyə belə əsəbi davrandım? Bəlkə onu dinləməyimi istəyirdi? Biz birlikdə hər şeyin öhdəsindən gələrik.

Gəzə-gəzə gəlib şəhər mərkəzinə çatdı. Rəsm qalereyasının qarşısında bir qoca kişi rəsm satırdı. Yaxınlaşdıqca şəkillər onu heyran edirdi. Gözünə həmin şəkil sataşanda özünü rəsmdəki beli bükülmüş qocaya bənzətdi. Çünki onun da bu mübahisədən sonra beli bükülmüşdü. Sakitcə dedi:

-Bu rəsmi almaq istəyirəm...

-Mənasını bilirsən?

-Yox

-Bax, bu kişi tısbağalara özü kimi yeriməyi öyrədir. Görürsən belini necə büküb? Çünki tısbağayla onun dilində danışmaq istəyib. Tısbağa kimi belini büküb ki, onu daha yaxşı anlasın. Biz də bəzən sevdiklərimizi anlamaq üçün onların yerinə özümüzü qoymalıyıq. Onlar kimi düşünməli, onlar kimi yeriməliyik.

Rəhim qərarlı idi bu rəsmi almaqda. Çünki səadət qapısına addım atmaq üçün Nazlı ilə birgə addımlamalı, onun ürəyini oxumağı bacarmalıydı.

Qapı döyüləndə Nazlı iri addımlarla qapını açdı. Rəhimi gördükdə yaxınlaşıb onun boynunu qucaqladı. Rəhimsə gülümsünərək

rəsmi Nazlıya hədiyyə etdi. Rəsmi açanda Nazlının gözləri doldu, çünki bu onun ən sevdiyi rəsm idi. Artıq Nazlı da, Rəhim də işin nə yerdə olduğunu bilirdi və Rəhim gözlərini Nazlıya zilləyərək:

-Biz artıq bir-birimiz üçün tısbağayıq. Bundan sonra bir-birimizə verdiyimiz sözü tutmalıyıq. Heç vaxt bir-birimizdən qopmamalıyıq. Mən səni dünyalar qədər sevirəm. – dedi. – Hələ gözəl günlər qabaqdadır. İndi isə unutmamısansa, axşama qonaqlarımız olacaq. İşimiz çoxdur.

Birlikdə mətbəxə yollanan cütluk bir azdan iş başındaydı.

Axşama qonaqlar bir-bir yığılırdı. Hamı divardan yenicə asılmış tablonu soruşurdu. Rəhim isə dodaqaltı gülümsəyərək dedi:

-O bizim bir-birimizə hədiyyəmizdi. Tısbağa tərbiyəçisidi.

## Mündəricat

Firavanın poetik sevgisi ..................................3

### Duyğular doldurur saf qəlbimizi

Sən ...................................................................8
Qəlbimin tək sahibi..........................................9
Bu gülün şehində ...........................................10
Görürəm səni ...................................................10
Liman .................................................................11
Əmanət ..............................................................12
Zaman ................................................................14
Firtina.................................................................15
Ağ-qara .............................................................16
Dahi Bəxtiyar ...................................................17
Sınaq...................................................................17
Qəmli can .........................................................18
Altmışmı, yetmişmi ........................................19
Yaradan.............................................................20
Dostlarım..........................................................21
Qoca dost..........................................................22
Məktubum........................................................22
Yox olsun qara bulud.....................................23
Yaşlar qəlbə axdıqca.......................................24
Fikir ...................................................................25
Güman ..............................................................26
Ümid .................................................................26
Xəzəl oldum .....................................................27
Bir qadın əlində son ümidləri........................28

Tənhalıq ........................................................29
Qonağım ........................................................29
Çivi ........................................................30
Qələmim ........................................................31

**Sıralanıb ağaclar insan kimi yollara**

Günəş ........................................................33
Jalə ........................................................34
Su ........................................................35
Ulduz ........................................................35
Bulud ........................................................36
Göy qurşağı ........................................................37
Ay ........................................................38
Ağac ........................................................39
Daş ........................................................40
Ucalıb kəhkəşana ........................................................41
Çinar ........................................................42
Külək ........................................................43

**Şəhidimizin gözlərində daşlaşdım mən**

Tənha şəhid məzarı ........................................................45
Müzəffər ordumuz ........................................................46
Qovuşmayan sevgimiz ........................................................46
Bircə ümidi var ........................................................47
Gecə adamı ........................................................48
Keçmişdən bugünə ........................................................49
İgidim ........................................................50
Kədərli qadın ........................................................51
Daş ürəkli atalar ........................................................52

Şəklin gözlərimdə ........................................53
Yuxularım........................................................53
Sənsiz .............................................................54
Uşaqlığım .......................................................55

**Naxışların dilindəyəm**

Naxış dili ........................................................57

**Məktəb yolları**

Ən gözəl zinətimiz .......................................61
Müəllimim......................................................62

**Ömürlüksevdam var  kiçik qəlbimdə**

Düşüncəmdəsən.............................................65
Sevdam ...........................................................66
Giley ...............................................................67
Eşqinə sarı .....................................................68
Səni istədim...................................................68
Gecə................................................................69
Yollar .............................................................70
Əbədi qonaq..................................................71
Uşaq payı........................................................72
Nigaran...........................................................72
Tale yükü .......................................................73
Mən sənin qəlbinin içindəymişəm..............74
Doğmalıq.......................................................75
Dəyərli ...........................................................76
Gözlərim yol çəkir........................................77
Ney .................................................................78

**Sənin xoş xəbərin mənim bəsimdir**

Anam........................................................................80
Qardaş......................................................................81
Yaradan nə gözəl ...................................................82
Yaradıb səni............................................................82
Qəribə hisslərin ağuşundayam .......................83

**Hər günümüz bir hekayə**

İki mələk.................................................................86
Vaqonda möcüzə....................................................91
Yadigar sırqalar ......................................................98
Tısbağa tərbiyəçisi...............................................105

**Firavan Mahir**
*(Firavan Mahir qızı Məmmədova)*

# Jalə sevgisi

**(poeziya, nəsr)**

İMZA
NƏŞRLƏR EVİ

**Direktor:** **Səbuhi Aslan**

**Dizayner:** **Nigar Sadıqova**

*Çapa imzalanmışdır: 23.05.2026*
*Ofset çapı. Əla növ kağız*
*Tiraj: 200*
*Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə*
*Telefon: (012) 538-18-87, (050) 263-16-16*
*email: imza_nesrler_evi@mail.ru*
*www.imza.info*

*Qeyd üçün:*

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................

..........................................................................